# Ədəbiyyat Muzeyində açıq dərs



**Azərbaycan Kooperasiya Universitetinin marketinq və menecment fakültəsinin II kurs tələbələri Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyini ziyarət ediblər. "Muzey, arxiv işi və abidələrin qorunması" ixtisası üzrə təhsil alan tələbələrə muzeydə açıq dərs keçirilib.**

Muzeyin şöbə müdiri, sənətşünaslıq üzrə fəlsəfə doktoru Gülsəba Həsənova "Azərbaycan ədəbiyyatının təsviri incəsənət əsərlərində təqdimi" mövzusunda tələbələrə məruzə edib. Universitetdə Təsviri incəsənət tarixi fənnini tədris edən şöbə müdiri əxlaqi-tərbiyəvi, estetik hisslərin inkişafında mühüm rol oynayan muzey eksponatlarında əsas yeri incəsənət əsərləri tutur. Azərbaycan ədəbiyyatı və mədəniyyətinin muzey ekspozisiyasındakı təsviri sənət əsərləri vasitəsilə təqdimi muzey mühiti ilə yaradıcı idrak, tədris prosesi arasında əlaqənin inkişafına təkan verir.

Daha sonra muzeyin Beynəlxalq əlaqələr və dünya muzeyləri şöbəsinin böyük elmi işçi, filologiya üzrə fəlsəfə doktoru Gülnar Əqiq tələbələrə həm Azərbaycan ədəbiyyatının müxtəlif mərhələləri, həm də incəsənət əsərləri haqqında ətraflı məlumat verib. Ziyarətçilər nadir eksponatlar, əlyazma nüsxələri, miniatür nümunələri və müxtəlif dövrlərə aid ədəbi irsi əks etdirən materiallarla, təsviri sənət nümunələri və onların tarixi ilə daha yaxından tanış olublar.

Ədəbiyyat Muzeyinin direktoru, akademik Rafael Hüseynov Azərbaycan muzeyşünaslığının çoxillik ənənələrindən danışıb, tələbələrə tövsiyələrni verib.

***Qabil YUSİFOĞLU***
***XQ***

Xalq qəzeti .- 2025.- 27 noyabr (№251).- S.12.